"Göyərçin" - 55

55 illik şərəfli yaradıcılıq yolu

Müsahibimiz "Göyərçin" jurnalının baş redaktoru, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, tanınmış şair, ədəbiyyatşünas, pedaqoq, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğludur.

- Bizim hamımız uşaq vaxtı "Göyərçin"i sevə-sevə oxumuşuq. Qeribədir ki, indi də bu jurnalı övladlarımız, nəvələrimiz sevə-sevə oxuyurlar. "Göyərçin"in nəşr tarixi haqqında oxucularımıza məlumat vermeyinizi xahiş edirəm.

- "Göyərçin"in ilk sayı 1958-ci ildə işıq üzü görəndə mən Azərbaycanımızın ucqar dağ kəndlərindən birində, Qubadlı rayonunun Çardaxlı kəndində yaşayır və tehsil alırdım. Atam məktəb direktoru idi. Bir dəfə o, evə gələndə getirdiyi qəzet və jurnallardan biri daha çox diqqətimi çəkdi. Birinci dəfə idi ki, belə bir rəngli jurnal görürdüm. Onun üz qabığında eynən mən yaşda olan qaraqaş, qaragöz, güləruz bir oğlanın şəklini görəndə ürəyimdən keçmişdi ki, kaş mənim də şəklim bu jurnalda çap olunaydı. Onda heç ağlıma da gəlməzdi ki, nə vaxtsa bu jurnalda mənim də şeirlerim, hekayələrim, nağıllarım çap olunacaq, nə vaxtsa bu jurnalın əməkdaşı, hetta baş redaktoru olacağam.

"Göyərçin"in ilk sayında çap olunan "Göyərçin" şeirindən bezi misralar indi də yadımdadı.

Göyərçinim, ağ quşum,
Gel qoşa uçaq, quşum!
Bakının göylərinden,
Xazerin üzerinden
Gel uçaq uzaqlara,
Qoşulaq uşaqlara.
Her zemiden bir sünbül,
Her bağçadan çiçek, gül
Toplayıb qucaq-qucaq,
Gel uçaq, uçaq, uçaq!

Sonradan öyrendim ki, bu şeirin müellifi Əhməd Cəmil Azərbaycanın en tanınmış şairlerinden biri imiş. Jurnalın ilk sayında yazıları çap olunan Abdulla Şaiqin, Mikayıl Rzaquluzadenin, Əleviyyə Babayevanın, Əli Veliyevin, Xanımana Əlibəylinin, Mirvarid Dilbazinin, Həbibə Zeynalovanın, Hüseyn Abbaszadenin, Həsən Seyidbəylinin, Mirmehdi Seyidzadenin, resmleri verilen Yusif Hüseynovun, Davud Kazımovun, Rasim Babayevin adlarını derin minnetdarlıq duyğusu ilə xatırlatmaq istəyirəm. Uşaq vaxtı bu adlar mene heç ne demese de, indi bilirem ki, "Göyərçin" oxucuların ilk görüşüne çox güclü yaradıcı kollektivle gelibmiş...

- Balalarımızın sevimli jurnalı "Göyərçin"i araya-arsaya getirenler kimler olub?

- Jurnalın ilk redaktoru tanınmış yazıçı Yusif Əzimzadə olub. Sonra xalq yazıçısı Hüseyn Abbaszadə, Xalidə Hasilova, Tofiq Mahmud "Göyərçin"ə rəhberlik eleyiblər. 1997-ci ilden ise adlarını derin hörmet ve ehtiramla çekdiyim hemin yazıçıların yolunu men davam etdirirem. Ayrı-ayrı vaxtlarda Hikmet Ziya, Xəlil Rza Ulutürk, Bayram Hesanov, Əbülfəz Hüseyni, Həbibə Zeynalova, Cahangir Məmmədov, Vaqif İbrahim, Tahirə İsgəndərova, Yusif Hüseynov, Rafiq Mehdiyev, Rəşid Əmirov kimi tanınmış şairler, yazıçılar, rəssamlar "Göyərçin"ə redaksiyasında işleyiblər. Allah onların hamısına rehmet elesin, ruhları şad olsun!

- Rafiq müəllim, her bir metbuat organının siması onun müəlliflari ilə müeyyen olunur. Sizin jurnalda eserleri daim çap olunan şair ve yazıçılardan kimlerin adlarını çekə bilersiniz?

- Bu siyahı çox böyükdür. Ele biliram ki, tekce eserleri "Göyərçin"de çap olunan xalq şairlerinin, xalq yazıçılarının adlarını çeksem, size her şey aydın olar: Süleyman Rəhimov, Mirzə İbrahimov, Mehdi Hüseyn, Əli Veliyev, İlyas Əfəndiyev, Süleyman Rüstəm, Rəsul Rza, Məmməd Rahim, Mirvari Dilbazi, Nigar Rəfibəyli, Medinə Gülgün, Balaş Azəroğlu, İsmayıl Şıxlı, Əzizə Cəfərzadə, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Hüseyn Arif, Məmməd Araz, Xəlil Rza, Nəriman Həsənzadə, Anar, Elçin, Fikret Qoca... Hele siyahı bununla da tamamlanmır, Azərbaycan uşaq ədəbiyyatının en görkemli nümayendeleri kimi tanınan Mikayıl Rzaquluzadə, Mirmehdi Seyidzadə, Xanımana Əlibəyli, Teymur Elçin, Fikret Sadıq, İlyas Tapdıq, Tofiq Mütəllibov, Əleviyyə Babayeva, Əzizə Əhmədova, Zahid Xəlil ve başqaları "Göyərçin"ə daim əməkdaşlıq edən müəlliflər olublar. Əsasən böyükler üçün yazılıb-yaradan Əhməd Cəmil, Qasım Qasımzadə, Adil Babayev, Salam Qədirzadə, Əlibala Hacızadə, Əli Kərim, Məmməd Aslan kimi tanınmış şeylem sahibleri de arabir öz yaşeyerleri ile "Göyərçin"də çıxış eleyibler.

- "Göyərçin"in bir qanadı da resm eserleridir. Jurnalla emekdaşlıq eden tanınmış ressamlar olubmu?

- Əlbəttə, olub. Yusif Hüseynov, Davud Kazımov, Rasim Babayev, Toğrul Nerimanbəyov, Tofiq Cavadov, Rafiq Mehdiyev, Altay Hacıyev, Cemil Müfidzadə, Elmaz Hüseynov, Arif Hüseynov, Arif Əzizov, Ənvər Qarayev, Oqtay Quliyev ve başqa bu kimi tanınmış ressamların eserleri hemişə "Göyərçin"ə xüsusi gözellik verib. İndi de hemin görkemli ressamların yolunu İlqar Mehdiyev, Metanət Aslanova, Vəfa İbrahimqızı, Orxan Hüseynov, Leyla Salamova, Kübra Salamova, Aytan Şirzadova, Afər Mehdiyeva, Fidan Axundova kimi ressamlar leyaqetle davam etdirirler.

- Sizce, "Göyərçin"in başlıca uğuru neden ibaretdir?

- Xalqımızın gözel temsil ustası, uzun müddet bizim jurnalda şöbe müdiri, mesul katib vezifelerinde çalışmış merhum Hikmet Ziyanın bir sözü yaddımı düşür: "Göyərçin" qartallar yetişdirir"... "Göyərçin" jurnalı yarandığı ilk günden bu güne qeder Azərbaycan uşaq ədəbiyyatının "teserrüfat sahesi" olub. Bu jurnalda çap olunan yazılardan orta mektəb dersliklerı, elave oxu kitabları hazırlanarken gen-bol istifade olunub. "Göyərçin" "Əliba"dan sonra uşaqlarımın, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin atalıq qayğısı netiçesinde "Göyərçin" öz "uçuşlarını" indi de davam etdirir. Jurnalımızın yaradıcı kollektivi hemişe bize gösterilen böyük etimadı doğrultmağa çalışır. Biz dərk eleyirik ki, gelecəyin vetendaşlarını terbiye etmek yolunda üstümüzde çox böyük mesuliyyet düşür. Dərk eleyirik ki, "Göyərçin" birbaşa uşaqların telim-terbiyesi ile bağlı olduğu üçün strateji ehemiyyete malik bir metbuat organıdır. Bazılarımızı vetenimizin adına layiq oğullar, qızlar kimi terbiye elemek işinde biz de öz töhfelerimizi vermeye çalışırıq. Arzumuz budur ki, jurnalımızın oxucularının sayı gündən-güne çoxalsın.

- Rafiq müəllim, sizi ve rehberlik etdiyiniz "Göyərçin" jurnalının yaradıcı kollektivini 55 illik yubileyiniz münasibetile "Azərbaycan müəllimi" qazetinin emekdaşları ve çoxsaylı oxucuları adından tebrik edir, yeni-yeni uğurlar dileyirik.

- Çox sağ olun! Teşekkür edirem. Söhbetin bu meqamında ele bil ki, qulaqlarımda tanınmış bestekar, emekdar incesenet xadimi Nailə Mirmemmedlinin menim sözlerime bestelediyi "Göyərçinim" mahnısı seslenir:

Ömrün boyu ucalmısan,
Leyaqetle yaşamısan.
Qanadında sen ellere
Sevinc, ferah daşımısan.
Hey qanad çal, üstümüzde
Şeir, hikmet, nağıl yağsın.
Gelişinle ömrümüze,
Günümüze güneş doğsun!
Körpelerin ürəyinə
Cığır salan "Göyərçinim".
Azərbaycan göylerinde
Qanad çalan "Göyərçinim"!

Müsahibəni apardı: Ədalət DAŞDƏMİRLİ

İngilis dilində ilk "Məhkəmə təbabəti" dərsliyi çapdan çıxıb

Qurucusu olu öndərimiz Heydər Əliyev olan müstəqil Azərbaycan Respublikası gündə-gündən çiçəklənir, inkişaf edir və müasirləşir. Bütün bu inkişafın, stabilliyin qorunması və gələcək nəsillərə ötürülməsi olu öndərimizin siyasi kursunun layihəli davamçısı cənab İlham Əliyevin adı ilə birbaşa bağlıdır. Qeyd etdiyimiz tərəqqinin fonunda cəmiyyətimizdə gedən demokratikləşmə prosesinin xüsusi yer alması inkaredilməz faktdır. Prezident İlham Əliyev tərəfindən aparılan uğurlu dövlət quruculuğu siyasətində bütün sahələrdə olduğu kimi, hüquq və tibbi da böyük inkişaf olub. Məhkəmə təbabəti bu böyük elm sahələrinin arasında olduğu üçün onun da bu inkişafda özünəməxsus xüsusi çəkisi vardır.

Məhkəmə-tibbi ekspertiza hüquq-mühafizə orqanlarının fəaliyyəti zamanı əmələ gələn tibbi-biloji xarakterli sualların öyrenilmesi ve cavablandırılması ile meşğul olan ekspertiza sahesidir. Onun elmi bazasını ise məhkəmə təbabəti elmi teşkil edir. Odur ki, hüquq ve tibb sahelerinde yerleşen bu vacib ve özünəməxsus elm sahesinin yaxşı menimsenilmesi hem tibb, hem de hüquq fakültelerinin telebeleri üçün vacibdir. Bütün dünyada olduğu kimi, Azərbaycanda da all mekteblerin tibb, stomatologiya, hüquq fakültelerinde telebeler axırıncı kurslarda məhkəmə təbabəti kursunu öyrenirler.

Məhkəmə təbabəti elmi hüquq elminin telebelerine uyğunlaşaraq formalaşdığından, bazen onu "Hüquqda təbabət" de adlandırırlar. Məhkəmə ekspertizaları elminin bir sahesi olan məhkəmə təbabətinin respublikamızda inkişafda olması çox vacibdir. Heyat ve sağlamlıq eleyhine olan cinayetlerin açılmasında məhkəmə-tibbi ekspertizanın xüsusi yeri vardır. Odur ki, hüquq ve tibb fakültelerinin telebeleri bu fenni yaxşı menimsemelidirler. Eyni zamanda onu da vurğulamalıyıq ki, məhkəmə təbabəti fenni üzre Azərbaycan ve rus dillerinde edebiyyat olsa da, xarici dilde edebiyyata ölkemizde böyük telebat vardır. Telebat ondan ireli gelir ki, son iller Azərbaycanın all hüquq ve tibb tehsil ocaqlarında onlarla xarici ölkeden gelmiş yüzlerle ecnebi telebenin İngilis dilinde tehsil almasına baxmayaraq universitetlerimizin onları İngilisdilli dersliklerle temin etmekde çetinlikleri mövcuddur. Bu nöqteyi-nezerden BDU ve ATU-nun professoru, tibb elmləri doktoru Vüqar Məmmədovun 536 sehifeden ibaret İngilis dilinde yazdığı "Forensic medicine" ("Məhkəmə təbabəti") dersliyi ölkemizin, Azərbaycan tehsil sisteminin ve Azərbaycan alimlerinin ecnebi telebeler qarşısında imicinin yükselmesine xidmet edir. Professor V.Məmmədovun derslikde ehate etdiyi mövzular hem hüquq, hem de tibb fakültelerinin telebeleri üçün ehemiyyetlidir.

Doqquz fesilden ibaret derslik məhkəmə təbabəti sahesinde İngilis dilinde tertib olunmuş vacib tedris vesaitidir, böyük praktiki ve tetbiqi ehemiyyete malikdir, tedris prosesi zamanı böyük ehtiyac telep olunan kitabdır. Çox sade dilde, strukturlaşdırılmış şekilde yazıldığı üçün dersliyin oxucularda maraq doğuracağına inanırıq. Her fesilde məhkəmə təbabətinin bir sahesi (məhkəmə-tibbi tanatologiya, travmatologiya, toksikologiya, identifikasiya və.s.) geniş şekilde eks olunur. Bu dersilk azərbaycanlı alim terefinden məhkəmə təbabeti üzre İngilis dilinde yazılmış ilk kitabdır. Kitabın neşrinde müellife "İrəli" İctimai Birliyi, Azərbaycanda da all mekteblerin tibb, stomatologiya, hüquq fakültelerinde telebeler axırıncı kurslarda məhkəmə təbabəti kursunu öyrenirler.

Məhkəmə təbabəti elmi hüquq elminin telebelerine uyğunlaşaraq formalaşdığından, bazen onu "Hüquqda təbabət" de adlandırırlar. Məhkəmə ekspertizaları elminin bir sahesi olan məhkəmə təbabətinin respublikamızda inkişafda olması çox vacibdir. Heyat ve sağlamlıq eleyhine olan cinayetlerin açılmasında məhkəmə-tibbi ekspertizanın xüsusi yeri vardır. Odur ki, hüquq ve tibb fakültelerinin telebeleri bu fenni yaxşı menimsemelidirler. Eyni zamanda onu da vurğulamalıyıq ki, məhkəmə təbabəti fenni üzre Azərbaycan ve rus dillerinde edebiyyat olsa da, xarici dilde edebiyyata ölkemizde böyük telebat vardır. Telebat ondan ireli gelir ki, son iller Azərbaycanın all hüquq ve tibb tehsil ocaqlarında onlarla xarici ölkeden gelmiş yüzlerle ecnebi telebenin İngilis dilinde tehsil almasına baxmayaraq universitetlerimizin onları İngilisdilli dersliklerle temin etmekde çetinlikleri mövcuddur. Bu nöqteyi-nezerden BDU ve ATU-nun professoru, tibb elmləri doktoru Vüqar Məmmədovun 536 sehifeden ibaret İngilis dilinde yazdığı "Forensic medicine" ("Məhkəmə təbabəti") dersliyi ölkemizin, Azərbaycan tehsil sisteminin ve Azərbaycan alimlerinin ecnebi telebeler qarşısında imicinin yükselmesine xidmet edir. Professor V.Məmmədovun derslikde ehate etdiyi mövzular hem hüquq, hem de tibb fakültelerinin telebeleri üçün ehemiyyetlidir.

"Forensic Medicine" dersliyinin Azərbaycanda rəsmi instansiyalardan keçib neşr olunması üçün kitab İngilis dilinden Azərbaycan diline tercüme olunub, tercüme esasında Azərbaycan dilinde da "Məhkəmə təbabəti" dersliyi 521 sehifede işıq üzü görmüşdür.

Yuxarıda qeyd olunanlara onu da elave etmek olar ki, Dünya Tibbi Hüquq ve Avropa Tibbi Hüquq assosiasiyalarının İdarə Heyətinin üzvü, YUNESKO-nun eksperti, tibb elmləri doktoru, professor Vüqar Məmmədovun İngilis dilinde "Forensic Medicine" ("Məhkəmə təbabəti") dərsliyi gündən-güne müasirləşen Azərbaycanın çağdaş dövrünün teleblerine yüksek seviyede cavab verir, ondan istifade edecek azərbaycanlı ve xarici telebelerin bu fenni rahatlıqla menimsemelerinde onlara yardımçı olacaqdır. Sonda onu da bildirmek istərdik ki, bu dərsliyin toplumda hüquq, tibb, bütövlükde məhkəmə təbabeti anlayışının qanranlmasına da yardımçı olacağına inanırıq. Kitabdan tekce telebeler deyil, ingilis dilinde oxuya bilen magistrant, doktorant, hüquqşünas ve elmi işçiler de faydalanacaqlar.

Əmir ƏLİYEV,
Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı, hüquq elmləri doktoru, professor

Şamaxı şahmatçısı 6-cı dəfə finalda

Yanvar ayının 2-12-si tarixlərində Kürdəmir şəhərində yaş qrupları üzrə Azərbaycan birincliyinin seçmə oyunları keçirilmişdir. Yarışda Bakı şahmatçıları istisna olmaqla respublikanın bütün şəhər və rayonlarının şahmatçıları təmsil olunmuşdur.

5 yaş qrupu üzrə oğlanlar və qızlar arasında finalda mübarizə aparacaq şahmatçıların adları məlum olmuşdur. Yarışlar İsveçrə sistemi üzrə keçirilmiş və əksər yaş qruplarında 9 tur oynanılmışdır. Şamaxı şahmatçıları uğurla yarışmışlar. Niyaz Məmmədov xüsusilə fərqlənmişdir. 14 yaşlı şahmatçımız bütün turnir boyu liderlər sırasında olmuş, Quba şahmatçısı Şəhriyar İsgəndərov və Şəki şahmatçısı Faiq İmamverdiyevlə birlikdə 7 xal toplayaraq turnirin qalibləri kimi finala vəsiqə qazanmışlar. Əlavə göstəricilərə görə Niyaz Məmmədov ikinci mükafata layiq görülmüşdür. Xüsusilə qeyd edilməlidir ki, bu, Niyazın final mərhələsinə 6-cı vəsiqəsidir. O, 2008, 2009-cu illərdə 10 yaşlıların, 2010-cu ildə 12 yaşlıların (finalda Niyaz V yeri tutmuşdur), bu il isə 14 yaşlıların turnirində qalib gelmişdir. 2011-2012-ci illərdə isə Niyaz finala vəsiqəni Şamaxının oğlanlardan ibarət komandasının tərkibində qazanmışdır. Niyaz Məmmədov 2010-cu ildə Gürcüstanın Batumi şəhərində keçirilen yeniyetmə şahmatçıların Avropa çempionatında da uğurla yarışmışdır.

14 yaşlılar arasında digər Şamaxı şahmatçısı Saleh Abdulrəhmanov da uğurla yarışmışdır. Saleh 4 şahmatçı ilə yanaşı 6.5 xal toplayaraq IV-VI yerləri bölüşmüşdür və yalnız əlavə göstəricilərə görə finala düşə bilməmişdir. Digər Şamaxı şahmatçıları - Asim Sərxanov, Cavanşir Məmmədov, Mənsur Sərxanov və İlahə Xudiyeva da turnirdə uğurla çıxış etmişlər.

Şahmatçılarımızı, onların məşqçisi - məktəbin baş məşqçi-müellimi Yaşar Məmmədovu təbrik edir və onlara yeni-yeni uğurlar arzulayırıq. Niyazın mart ayında Bakı şəhərində respublika birincliyinin finalında çıxış edəcəyi dördüncü cəhdində daha böyük qələbəyə nail olacağına inanırıq.

Asif AĞAYEV,
Şamaxı Şahmat Məktəbinin direktoru, əməkdar müəllim, fəxri bədən tərbiyəsi və idman işçisi

İki dəfə dünya, bir dəfə Avropa çempionu

Bu dünyada hamımız yol gedirik. Enişli, yoxuşlu bir həyat yolu. Bu yolda hərə öz səadətini tapmaq, arzu və istəyinə çatmaq üçün mübarizə aparır. Danılmaz bir həqiqətdir ki, yalnız bütün çətinliklərə sinə gərənlər, məqsədinə çatanadək hər əzaba qatlaşanlar öz amalına, istəyinə, arzusuna nail olublar. Elə oxucularımızı tanış etmək istədiyimiz ozmkarlığı, dayanəti, inadlı mübarizəsi sayəsində iki dəfə dünya, bir dəfə Avropa çempionu olan Zaur Cəfərli kimi. Əvvəlcə onu qeyd edək ki, Zaur 1997-ci ildə Bakıda anadan olub. 2003-cü ildə Bakıdakı 39 nömrəli tam orta məktəbin birinci sinfinə gedib. Hazırda həmin məktəbin X sinfində oxuyur.

Zaurun sorağı ilə...

Zaur haqqında əvvəldə söylədiyimiz məlumatları xoş bir təsadüf nəticəsində öyrənmişdik. Elə bu günlər 39 nömrəli tam orta məktəbin direktoru Tahirə Şükürova ilə olaqa yaratdıq. Bir-iki gün sonra Zaurun sorağı ilə məktəbə getdik. Onunla direktorun otağında görüşdük. Tahirə müəllim Zaurun nizam-intizamlı, dərslərini yaxşı oxuyan, idman sahəsində qazandığı uğurları ilə məktəbin adını ucaldan bir şagird olduğunu söylədi və onun idman sahəsində qazandığı uğurlardan bəhs edən fotostendi hazırladıqlarını da bildirdi.

Söhbət zamanı məktəbin fiziki tərbiyə müəllimi Eldar Sadıqov da Zaurun idmana olan böyük marağından, bu sahədə əldə etdiyi uğurlardan və öz şagirdi ilə fəxr etdiyindən danışdı.

Biz sonra söhbətimizi Zaurla davam etdirdik.

"Atam məni idmanın qaydasız döyüş növünə yazılmağa qoymadı"

- Öncə onu deyim ki, 5-6 yaşım olanda atama bildirdim ki, istəyirəm idmanın qaydasız döyüş növünə yazılım. Atam isə əzilə-əzilə onu, qol-qıçımın qırılacağından ehtiyatlanaraq mənim istəyimə qəti etiraz etdi. O, elə həmin vaxtdan məni "Təhsil" Respublika İdman Mərkəzinə üzgüçülük bölməsinə yazdırdı. Bir neçə il burada məşğul olduqdan sonra 2009-cu ildə mən öz istəyimə nail olmaq üçün "Turan" İdman Klubunda kinq-boks idman növünə üzv yazıldım. Burada müəllimim, beynəlxalq dərəcəli məşqçi Ruhi Hüseynovun rəhbərliyi ilə kinq-boksun sirlərinə yiyələnməyə başladım. Beləliklə, 3-4 illik müntəzəm və gərgin məşqlərim məni beynəlxalq yarışlarda iştirak etməyimə əsaslı zəmin yaratdı. Onu da deyim ki, mən idmanın kinq-boks, qaydasız döyüş və budo növlərinə yarışa bilirəm.

"2012-ci il mənim üçün daha uğurlu il olub"

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncami ilə 2012-ci ilin ölkəmizdə "İdman ili" elan olunması bir idmançı kimi mənim həyatımda xüsusi olaraq əhəmiyyət kəsb edib. Ona görə ki, öten ilin fevralında Gürcüstanın Tbilisi şəhərində kinq-boks üzrə yeniyetmələr arasında keçirilən beynəlxalq açıq turnirdə uğurlu çıxış edərək I yero çıxdım. İlk dəfə olaraq qızıl medalın sahibi oldum.

İkinci qələbəm isə Türkiyənin Niğdə şəhərində öten ilin aprelində "Atatürk kuboku" uğrunda kinq-boks üzrə yeniyetmələr arasında keçirilən yarışda I yeri tutaraq qızıl medal qazanmağım oldu.

2012-ci il aprelin 19-20-də Sankt-Peterburq şəhərində budo (albeyaxa döyüş növü) üzrə yeniyetmələr arasında keçirilən Avropa çempionatında I yeri tutaraq Avropa çempionu adını qazanmışam. Bu il kinq-boks üzrə maraqlı yarışlarımdan biri də Gürcüstanın Ureki şəhərində olub. Hemin beynəlxalq turnirdə rəqibim ermeni döyüşçüsü Tiqran Hovhanisyan idi. Onu cəmisi bir dəqiqə ərzində məğlub etdim.

İkiqat dünya çempionu adının sevinci

Hemin gün Zaur bizimlə görüşə müxtəlif yarışlarda böyük zəhmətə sayəsində qazanaraq bir torbaya yığdığı medalların da gətirmişdi. Onların arasından əvvəlcə bir medal götürərək dedi:

- Bax, bunu öten il 12-13 sentyabr tarixlərində Rusiyanın Anapa şəhərində kinq-boks üzrə dünya kuboku uğrunda keçirilən yarışda I yeri tutaraq dünya kubokunun sahibi olduğuma görə qazanmışam.

Bu ikinci qızıl medalı isə 2012-ci ilin 21-25 oktyabr tarixlərində İranın Kiş adasında budo üzrə keçirilən dünya çempionatında I yeri tutduğuma görə mənə təqdim edildi. İkinci dəfə dünya çempionu olmağımın sevinci bu gün de şirin bir xatirə kimi qəlbimdə yaşayır. Onu da deyim ki, budo Şərq idman növü olaraq, bu-dəyüş, do-iso yol deməkdir.

Bəli, Zaurun qazandığı ikiqat dünya çempionu adının sevinci, əlbəttə, onun gecəli-gündüzlü çəkdiyi zəhmətinin bəhrəsidir.

Ötən ilin sonuncu yarışı

Zaurun sonuncu yarışı ötən il noyabrın 17-18-i tarixlərində Gürcüstanın Tbilisi şəhərində olub. O, bu yarışda Azərbaycanın yığma komandasının üzvləri ilə birlikdə iştirak edib. Qaydasız döyüş üzrə beynəlxalq açıq birincilik yarışında da o, birinci yero çıxaraq qızıl medalın sahibi olub.

Onun əvvəlki qələbələri kimi bu qələbəsi də təhsil aldığı orta məktəbdə tantənə ilə qeyd edilib. Zaur Cəfərliyə tər-çiçək dəstələri təqdim edilərək ona yeni-yeni qələbə uğurları arzulayırlar.

Ə.DAŞDƏMİRLİ